3. Buludlu səmanın günəşi

Bağda ağaclara, bağçada güllərə, çiçəklərə insan qayğısı olmasa, ağaclar quruyar, güllər qönçəsində yanar; hər şey tərəvətini itirər. Kənardan baxan hər kəs, əgər həssaslığı varsa, susuzluqdan, qayğısızlıqdan yanan ağaclara ürəyi yanar, qönçəsində yanmış gülləri yetim qalmış körpələr kimi təəssüf edər. Lap elə təbiətin özündə də belədir. Təbiət də meşəsinə dağında, yamacında, çölündə bitən bitkilərə öz qayğısını esirgəmir. Əgər fəsil quraq keçirsə, onda təbiət də vaxtından əvvəl solur. Ağaclar quruyur, kollar yaşıllığını itirir, çöllər bozarır.

Düşünürəm ki, insan həyatı da təbiətə, bitkilərə çox bənzəyir. İnsan taleyi cəmiyyətdən qayğı görməsə, cəmiyyətin ögey münasibəti ilə üz-üzə qalarsa, çətin günlər yaşamalı olar, ömür əzaba, əlilə çevrilər. Yaşın ki, xüsusi yardım fondları, sosial təminat məqsədli təşkilatlar da elə bu məqsədlə yaradılır ki, köməksiz, imkansız insanlara yardım olunsun.

İnsan həyatında baş verən hadisələrin heç biri izsiz keçib getmir. Şəxsiyyətin taleyində bu və ya digər dərəcədə iz buraxır bu hadisələr. Necə ki, təbiətdə quraqlıq olanda ağaclar yanır, qönçələr açıla bilmir, yaxud qədərindən artıq selsu dünyanı ağzına alanda sürüşmələr baş verir, yarğanlar yaranır. Və bunların da izi itib getmir. Uzun zamanlar ərzində müvafiq yerdəki dəyişimələri biz müşahidə edə bilirik.

Fərdlər və yaxud kədərlər... dəxli yoxdur, insanın düşüncəsində hər biri özünəxas iz qoyur. Fərdlər insanın mənəvi mühitini qidalandırır, onun fikirlərinin, düşüncələrinin qanadlanmasına yol açır, arzularının gerçəkləşməsinə, istəklərinin həqiqətə çevrilməsinə yardımçı olur. Kədərlər isə əksinə, insanı, əgər mübarizə imkanı yoxdursa, iradəsi zəifdirsə, demək olar ki, mənəvi cəhətdən şikast edir, onu yaxşılaşdırır, başqalarının gözündə bədbəxtə çevirir. Elə insanın öz gözündə də özü məlul və məhzun bir məxluqa çevrilir.

Ulduz Qasımın *"Qürbət Zöhrəsi"* əsərinin qəhrəmanı Zöhrə çoxqanadlı arzularla və həm də arzularına uyğun bir həvəslə həyat pillələrini irəliləməkdə idi. Oxumağın, yüksək dərəcədə təhsil almağın həyatında necə gərəkli olduğunu yaxşı bilirdi. Ona görə də təhsil boyu imtahanların hamısından uğurla keçə bilirdi. O, həyatını sağlam özüllər üzərində qurmağı arzulayır və bu yöndə uğurlu bir tale, qismət gözləyirdi.

Zöhrənin nəzərində sağlam ailənin əsasıləyaqətli sevgidir. Çünki sağlam ailədə fərdlər bir-birini sözsüz də anlayır. Bütün hallarda qarşıya çıxa biləcək maneələri dəf etməkdə birgə çalışmalı olurlar. Sevgi ilə qurulan ailələrdə tərəflər bir-birinin ilham mənbəyi olur.

Bu gənc qızın istəkləri son dərəcə alidir. Təbiət etibarı ilə yaradıcı gəncdir. Onun yazıb-yaratmaq ideyalarını sözə gətirmək istəyi qarşısalınmazdır. Bir anlığa hadisələri qabaqlayaraq belə olsa, Ulduz Qasımın Zöhrəsi ilk sevgisi ilə istəyinə çatır və Bakı mühitində - yaradıcı mühitdə sevgilisi ilə və eyni dərəcədə sevdalısı olduğu sözlə baş-başa qalır. O, cəmiyyətin içərisində baş verən hadisələri müşahidə etməklə daha dərin psixoloji problemlərin içərisinə daxil ola bilərdi. Yazısı get-gedə cilalanar, düşüncələri asanlıqla sözə çevrilərdi. Yəqin ki, bir yazıçı kimi də çox tez parlayardı. Amma tale bu yolu ona rəva görürmü?

Yaxşı deyirlər ki, sən saydığını say. Onu da bəri başdan qeyd edək ki, onsuz da Zöhrə başına gələn hər bir hadisəni tale ilə bağlayır. Qismətin verdiyi payı taledən ayrılmış məcburi haqq hesab edir. Görünür, elə bu səbəbdən də Zöhrə əsərin başlanğıcında artıq qeyd etdiyimiz kimi qəza-qədər obrazını daha qabarıq cizgilərlə əsərin lap əvvəlinə çəkir.

Bu gənc qızın həyatının birinci mərhələsinin bitdiyini qeyd etmişik. Sevgisi oğurlanmış, inamları itmiş, bir sözlə, saf qəlbi ağır zərə almışdı. Düşünmək olardı ki, Zöhrə bu zərbədən həyat dərsi alacaq. Yeni döyüşə, yeni mübarizəyə daha üstün təcrübə ilə qədəm qoyacaq.

Ancaq... Zöhrənin inamı qırıldığı üçün, daha aydın gələcəyə ümidi itdiyi üçün sanki özünü qəza-qədərin ixtiyarına verir.

Roman xatirə - düşüncələr motivində yazıldığı üçün (məhz bu səbəbdən biz Zöhrəni Çalıquşuna daha çox bənzədirik) o, zərurət yarananda hadisələrin sonrakı mərhələləri ilə bağlı məqamları qısa ettidlərlə düşüncələrinin arasına gətirir və bununla da daha uzaq gələcəkdə baş verəcək hadisələri də bəyan etmiş olur.

Zöhrənin düşüncələri bir insan həyatının mənəvi mühitinin dərinliklərində olan sarsıntıların özə çıxarılması sarıdan müəllif uğuru kimi qeyd olunmalıdır. Onun bibisi ilə söhbəti zamanı həyatı haqqında danışmaqdan vaz keçməsi, Fatimə 10 uşaq anasıdır. Bu qadının iradəsi, gücü nə qədər sarsılmazdır ki,ərinin ona verdiyi əzablara dözə-dözə, bu əzab vəiztirabları yaşaya-yaşaya 10 uşaq dünyaya gətirib.

Çox güman ki, əgər Zöhrə öz taleyinin *"oğrusu"* haqqında bibisi ilə açıq danışsaydı, belkə ondan daha ağıllı məsləhətlər eşidə bilərdi. Axı, Fatimənin yaşadığı zillətli həyat ona kifayət qədər təcrübə vermişdi. Amma Zöhrə susmağı üstün tutur. Sevgiyə xain çıxaraq daha bir imkanlı ailə ilə qohum olmağı üstün tutan Xalidin monfurluğu haqqında heç danışmır. Beləliklə, ilk dəfə ona ağıllı bir məsləhət vərə biləcək doğma adamın köməyindən məhrum olur. Bu da Zöhrənin həyatında gələcək fəsadlar üçün öz rolunu oynayır. İndi Zöhrə həyatının sonrakı mərhələsində, daha sərt faciələrlə qarşılaşdığı məqamlarda vaxtı ilə bibisinə yaşadığı iztirabların mahiyyəti haqqında danışmamağının peşmançılığını çəkir. Bu yerdə də yazıçı çox təbii boyalardan istifadə edir. Zöhrə elə bil ki, bizim gözümüzün qarşısında bir kino qəhrəmanı kimi görünür. Sanki onun daxili monoloquna biz onun iztirablı görünüşünə baxa-baxa diktor bizə tərcümə edir: *"Bu gün də səni görmək istəyirəm, səninlə dərdlaşmək isəyirəm. Heyfslanırəm, sənə dərdimi danışmamağım. İçimdəkiləri açıb-tökməməyimə, bəlkə sən mənə yaxşı bir məsləhət vərərdin. Utanırdım səndən açığı. Neçə dəfə ürəyimi doldurdum ki, hər şey haqqında səninlə danışım. Ancaq cəsarətim çatmadı buna. Nəsə məni saxladı. Boğazımdan yuxarı çıxmadı sözlərim. Taxanıb qaldı orada. İndi rahatam, bilirəm ki, artıq hər şey sənə ayandır. Amma bilmirəm qınayırsan məni, yoxsa yox?.. Yəqin qınamazsan... Başımı sığallamaq, "dayan, özünü üzma" demək istəyirsən. Sənin o böyük ürəyin sanki, gözümün qabağında döyünür. İki ögey oğlunu hansı qətnilik bəyüdüb oxutduğunu hamı bilir. Öz doğma övladlarına etmədiklərini onlara etdiyinin şahidi o uca Allahdır. Geyməyib onlara geyindirdiyini, yeməyib onlara yedirdiyini tanrımız və insanlar görüb. Beş il bir köynəyi gecələr yuyub, qurudub səhərlər geyindiyini mən bilirəm. Bunun şahidi olmuşam və bu haqda heç kimə demədiyini də bilirəm. Yeganə nişan üzüyünü satıb bütün ailənin topladığı pambıq pulunun üstünə qoyub ögey oğlunun nişanlısına komplekt aldığını, doğma övladlarına şor-çörək yeditdib, ögey oğluna və arvadına qayğanaq yeditdiyini də bilirəm. İkinci belə bir insan, belə bir qadın hələ görmədim, yəqin görməyəcəm də... Sən qardaşının dediyi kimi imamlarımızın bacılarına bənzəyirsən. Bilsən nə qədər sənə bənzəməyə çalışmışam bu həyatda. Kaş çətin günlərimdə yanımda olaydın, mənə yol göstərəydin. Amma onu da deyim ki, qızlarının heç biri sənə oxşamır. Heyif, çox heyif. Elə ananın belə qızları. Bunu kəndə demə yan yoxdur. Demirəm pisdilər, yox. Sadəcə bibimə bənzəmirlər. O başqa bir insan idi. Əslində Zeynəb bibim də səssiz-sovsuz idi. Fatimə bacısı kimi qeybətsiz, söhbətsizdi. Ancaq nəsə soyuq idi. Bacısı kimi öz sevgisini bildirə bilmirdi. Bəlkə də mənə ela gəlirdi, bilmirəm. Bircə onu biliram ki, hər ikisini dünyalar qədər sevirdim". Bundan sonra Zöhrə həyatının yeni mərhələsində qarşılaşdığı mühitin mahiyyəti haqqında danışır. Ana qızının tezliklə aile qurmasını istəyir. Müxtəlif tərəflərdən istəklər baş qaldırır. Amma Zöhrə kimsə razılıq vermir. Hətta o, şəhərdə, radiodatərəddüdlərə yazılarımı verməkdən çəkinirdim. Nəyi harada yazırdımsa, orada da qalırdı... O qədər şeirlərimi, hekayələrimi itirmişəm ki...". Bu yerdə Zöhrəni qınamaq daolmur. Hələ onun kökündən sevgi yarasının qanı axmaqda idi. Beləcə, bu dumanlı düşüncələr içərisində Zöhrə rəfiqəsi Mahirə ilə səhbət qılır. Kənddə onu nə gözləyirdi?

Birinci növbədə ananın *"Ailə qur"* tələbi. Yaxınlar, doğmalar hamısı onun üstünə düşür. Xalası oğlu, əmisi oğlu ona elçi düşmək istəyirlər, amma Zöhrə onların hamısına qəti olaraq yox cavabı verir. Onsuz da Zöhrə onu sarmış olan ağır iztirablar içərisində yenidən daha uzaqlaşmaqdadır. Elə bu səbəbdən də Rusiyada yaşayan həmkəndlisinin ona elçi düşməsinə etiraz edə bilmir. Kənd camaatı bu Vüqar adlı gəncin ailəsini yaxşı tanıdığından hər kəs qızın oda atıldığını deyir. Amma Vüqarı elə təqdim edirlər ki, bu təqdimat onun müsbət obrazını Zöhrənin ailəsində doğru təəvvürə çevirir.

Zöhrə Vüqarın haqqında düşünməli olur. Anasının tələbi, atasının Vüqargilin ailəsi haqqında dediyi sözlər onun etirazının qarşısını kəsir. Tərəddüdlər içərisində qovrulur. Belə bir məqamda bir insanın düşdüyü vəziyyəti təəvvürə gətirmək o qədər də çətin deyil. Sanki səma qara buludlarla tamam örtülüb, elə bil ki, bu qara buludlar bütün gücü ilə günəşin qabağını kəsmək istəyir; qoy, günəş görünməsin.

Axı günəş görünə həyat daha aydın olar, qaranlıqlarda, kölgəliklərdə "gizlənmiş" heçiqətlər üzə çıxar. Görmədiyi, bilmədiyi, tanımadığı insan, onun mənsub olduğu ailə Zöhrə üçün qaranlıqda gizlənmiş heçiqətdir. Zöhrə nə dəyilənlərdən, nə də uşaqlıq dünyasından gələn xatirələrdən Vüqarı aydın təəvvür edə bilmir.

(Davamı 5-ci səhifədə)

III. "QÜRBƏT ZÖHRƏSİ"NDƏ DÜŞÜNCƏ DÜYÜNLƏRİ

III. "QÜRBƏT ZÖHRƏSİ"NDƏ DÜŞÜNCƏ DÜYÜNLƏRİ

(Əvvəli 4-cü səhifədə)

Onun Rusiyanın uzaq şəhərində - Leninqrada nüfuz sahibi olmasından, özünə ev-eşik qurmasından, pul qazanmaq bacarığından danışanlar Zöhrəni inandıra bilməsə də, Zöhrə bunların yalan olduğunu da təəvvür edə bilmir. Belə bir məqamda atası onunla açıq söhbət etmək istəyir. Bu söhbətin özü də dünya görmüş, idarə etdiyi kənd və onun adamları haqqında aydın təəvvürü olan İbrahim kişinin mövqeyini göstərir. Əlbəttə, sonralar həyat göstərir ki, İbrahim kişi də zəngin həyat təcrübəsinə baxmayaraq qızını vəroəcəyi oğlanın ailəsi haqqında düzgün təəvvürdə olmayıb. Zöhrə hissiyatı ilə heç də yaxşı olmayan qaranlıq bir dünyaya sürüklənديiyini duyur, amma ətrafın təlqini ilə fikirlərini açıqlaya bilmir. Onun yeganə istinadı daxili monoloqudur: *"Hami öz otağına çəkildi. Pəncərəni açıb qarşısında durdum. Sərin meh əsirdi, qovaq ağaclarının pıçıltısı insanı alıb uzaqlara aparırdı. Mənim uşaqlıq zamanımın hamısı, demək olar ki, burada keçib. Bu tanış melodiyanı minlərcə dəfə dinləmişəm və bağçamızdakı ağacların, güllərin qoxusunu acgözlüklə içimə çəkmişəm. Bacımla aynabəndimizin giraçayindəki nərdivanda oturub söhbət edəədə, göy üzündəki uldızlara heyranlıqla baxa-baxa içimizə çəkirdik bu ətri. Nə olar, Allahım, məni o günlərə qaytar bir anlığa. Tək bircə anlığa uşaqlığıma apar məni. Axı möcüzələri ancaq sən yarada bilərsən".* Beləliklə, yenə özünü Allahın ixtiyarına buraxmaq, seçilən yolu Allahın ümidinə keçmək qərarını qəbul etməli olur.

Əsərin bu hissəsinə qədərki müşahidələr bizə nə deyir? Həqiqətənmi Zöhrə Allahın göndərdiyi qəza-qədərə boyun əyməyi tələb edir? Bu yolu həyatın mürəkkəbliklərindən çıxış vasitəsi hesab edirmi? Bizə ela gəlir ki, hər addımbaşı Allahın qüdrətini tərənnüm edən, hər cür möcüzələrə qadir olan Allahı tərənnüm etməkdə Zöhrənin başqa məqsədi də var. O, bütövlükdə insanlığa təlqin edir ki, Allah hər cür möcüzələrin sahibi olsa belə, insanı öz ağlına tapşırıb. İnsan öz düşüncəsi, bacarığı, qabiliyyəti ilə özünə düzgün yolu təmin etməlidir.

Zöhrənin düşüncələrində həyatın gözəlliyi, təbiətin ecazkarlığı həmişə ön planda durur. Elə bil ki, öz oxucusuna mənəvi mühitinin dərinliklərindən gələn bir ironiya da çatdırır; bax görürsünüz, hər cür möcüzəyə qadir olan Allah özünü qəza-qədərə tapşırmış olanın başına necə müsibətlər gətirir... Zöhrə bütün düşüncələrində həyat aşiqi olduğunu, Allahın qüdrətinə inamlı münasibətini nə dərəcədə qabarıq verirsə, bir o qədər də öz müsibətlərini və faciələrini qabarıq verir. Bununla da çox güclü təzad yaradır. Oxucunu xəbərdarlıq etməden bu ziddiyyətlərin arasına çəkir. Nəyin doğru, nəyin səhv olduğunu cazibəsinə çəkdiyi oxucuya anlatmaq istəyir.

Bəli, Zöhrə həyat aşiqidir, təbiət gözəlliklərinin vurğunudur. Təbiət gözəlliklərinin özündən belə təskinlik vasitəsi kimi istifadə edir: *"Hələ yazda ilk yarpaqlar açılanda elə bil gülümsəyir qovaq ağacları. O qədər gözəl, o qədər mülayim olurlar. Əsən mehin müşayiəti ilə nəsə oxıyırlar, nəsə pıçıldayırlar. Sanki insanlar kimi yazın gəlişinə sevinirlər, zümzümə edirlər. Bu musiqini heç bir bəstəkar nota almayıb, heç bir şair sözlərini yazmayıb. Çünki bu elə bir melodiyadır ki, onlar bunu bacarmazlar... O melodiya uca tanrının bizə baxş etdiyi əvəzsiz gözəlliklərdən, nemətlərdəndir. Kaş o gözəlliyi görə bilsəydik. Kaş ki... Aşağı bağçamızda, açıqlıq yerdə ilk baharda açan mavigözlü çiçəkləri görsəydiniz ağlınızı itirərdiniz. Və biz Allahın bu sonsuz lüfünü anlasaydıq, bütün gücü başımızı yerə qoyub ondan əfv diləyərdik, allərimizi göyə açıb onu yükür edərdik. Əfsuslar olsun ki, bunu etmirik. Bizə birisi bir gül bağışlayanda bilmirik ona necə təşəkkür edək, necə sağ ol deyək. Amma bütün dünyadakı gözəlliklərı, çiçəkləri, gülləri, ağacları, dağları, dərələri, dənizləri, çayları, bağları, bağçaları insanlara baxş edən, naz-nemət verən Xudaya şükür etməyi bilmirik. Dara düşəndə onu çağırırıq, ondan kömək istəyirik, ona yalvarırıq, ancaq sağ ol deyə bilmirik".* Bu məqamlarda o, tez-tez dini düşüncələrə qapılır. Mistik bir ruhla, magik bir düşünce ilə öz fikirlərinə aydınlıq gətirmək istəyir. Namaz qılmağı, oruc tutmağı çıxış yolu hesab etməklə, peyğəmbərin hədisləri ilə sanki kənlünü işıqlandırmağı üstün bilməklə həyatının mahiyyətini göstərir. Doğrudur, hələlik Zöhrənin bu düşüncələrində açıq-aşkar üsyan yoxdur. Amma təzadlı mühit bizə bir çox həqiqətləri anladır. Bütün hallarda Allaha tapınan Zöhrə tale girdabının dərinliklərinə doğru sürüklənir.

Əlbəttə, bütün hallarda hər bir ana övladının xoşbəxtliyini istəyir. Bu xoşbəxtlik adlanan şey nədirsə, ona qatmağın yolunu övladına göstərmək istəyir.

Əsərdə iki ana hiss edilməden müqayisəyə çəkilir. Biri Zöhrənin anası Sonadır. O, övladının həlallıqla ailə qurmasını, ev-eşik, uşaq-övlad sahibi olmasını istəyir. Ancaq bunu ləyaqətlə gerçəkləşdirmək, qızını halal bir evin gəlini kimi görmək diləyindədir. Qızının ailə qurmaq istəyində o qədər həssas və israrlıdır ki, Zöhrə elçi düşən ailənin mühitini görə bilmir. Elə əslində Zöhrənin faciəli duruma düşməsinin bir səbəbi də onun öz anasının kor-koranə, bu qərşısalınmaz istəyidir.

İkinci ana Vüqarın anasıdır. Onun adı Bəsirədir. Bəsirə ana da oğlunu ailə qurmasını istəyir. Ancaq onun istəyində bir sui-istifadəçilik var. Bu ailə düşünür ki, Vüqar Zöhrə kimi ali təhsilli, bacarıqlı, ağıllı bir qızla aile qurarsa, onun həyatı xoşbəxtliklə süslənər. Amma düşünmürlər ki, Zöhrə ilə Vüqarın arasında düşünce uçurumları var, onların hər birisi başqa-başqa mənəvi dəyərlərin sahibidir.

Biz mətn boyu ataların da müqayisəsini görürük. Bu məqamlarda da Zöhrənin atasının alicənablığı daha aydın görünür. Vüqargilin ailəsi də düşünüldüyü qədər avam deyil. Onlar bu ailənin çürük əsaslar üzərində qurulduğunu çox asanlıqla maskalaya bilir, gizlədirlər. Hətta Vüqarın təhsilli olmağı, bankda ehtiyat pulunun yatırıldığını da dilə gətirirlər. Xüsusilə ailənin çürük mənəvi mühiti nişan mərasimində daha aydın görünür. Ən böyük, ifrat dərəcədə çürüklük elə toyun səhəri günü üzə çıxır.

Ulduz Qasımın həyat həqiqətlərinə sadiqliyi ilə təəvir olunan mənzərə saxtakarlığı açmaq üçün bəs edəcək gücdədir. Qar əriyəndə bütün təzəklər üzə çıxır, görünür.

Zöhrənin düşdüyü ailənin eybəcər mənəvi mühitini göstərmək üçün əsərdən müvafiq parçanı, hətta bir qədər çox olsa belə, oxucuya çatdırmağı özümüzə borc bilirik: *"Sahər yerimdən qalxanda çölə çıxmaq istədim. Amma gəlinlik paltarından başqa heç nə tapmadım geyinməyə. Hara baxdımsa bir şey görmədim, alacısızlıqdan Vüqardan soruşmalı oldum:*

-Bilmirsən, mənim paltarlarım haradadır?

-Yox, bilmirəm.

-Qalxmaq istəyirəm, amma geyinməyə bir şey yoxdur.

-Neynirsən qalxmağı? Yxıl, yat. Görmürsən, hələ heç kim qaxlmayıb?

Elə həmin an onun deyilənlər qədər olduğunu hiss etdim.

-Necə yani yat? Tualetə getmək istəyirəm.

Gördüm ki, o da nə deyəcəyini bilmir. Susdum. Düşündüm, əgər gəlinlik donumu geysəm, onunla yeriyə bilməyəcəm. Ona görə döşək mələfəsinə bürünüb çölə çıxdım. Yaxşı ki, həyatda heç kim yox idi. Sahər açılanda gördüyüm səhnəni yadımdan çıxara bilmirəm. Komik bir səhnədir. Vüqarın böyük qardaşının xanımı qapını döydü:

-Zöhrə, zəhmət olmasa mənim ayaqqabımı ver, işə gedirəm.

Çaşdım, ora-bura baxmağa başladım.

-Haradadır, Solmaz?

-Hara qoyduğunu bilmirsən?

-Mən?

-Dünən geydiyin ağ ayaqqabını deyirəm. İçəri keçib tufllıları götürdü.

-Aaa, az qala unutmuşdum, saatımı da ver.

"Deməli, saatla tufli Solmazınmış. Görəsən tay kimin nəyi var?". Aydındır, demali, heç mənim geyinməyə paltarım da yoxdur. Hərədən nəsə yığıb getiriblər. Niyə axı? Bu aldatmalar nəyə lazımdır? Sonra ikinci qardaşının arvadı gəlib, sırğaları və üzüyün birini götürdü. Elə bil, hamısı sözləşmişdi. Gözlərimə inanmırdım. Sakitcə olanlara tamaşa edir, nə deyəcəyimi bilmirdim. Vüqar pərt olduğumu hiss etmişdi. Nə deyəcəyini o da bilmirdi.

-Qoy, nənəmi çağırım.

Geyinib çıxdı, 5 dəqiqə keçməmiş Bəsirə xalayla qayıtdı. İçəri girər-girməz qaynanam söza başladı:

-Vallah, Vüqar özü dedi ki, siz aldıqlarınızı o bəyənməz. Leninqrada gedən kimi nə lazımdır alarıq. Sən bunlara layiq deyilsən. Oxumuş, görmüş-götürmüş qızsan. İncimə.

Gəlinlik paltarında oturduğumu görüb yenidən mənzərəsinə davam etdi:

-Oy başıma xeyir, qoy qızlara deyim, sənə bir şey gətirsinlər geyməyə.

Və tez də mövzudan uzaqlaşmaq üçün geri döndü. Amma mənim içimdə şübhali fikirlər böyüməyə başladı. "Birincisi, niya axı Vüqar bunları mənə demədi, əgər o mane olmuşdusa, pal-paltar almağa? İkincisi, niyə Vüqar anasından ayrı bir söz demir mənə, ancaq onun ağzına baxır? Əvvəldən sözləşmiş kimi. Bir xalat almağa nə söz? Məgər bunlar düşünmürdülər ki, gəlin toy libasını məclisdən sonra çıxaracaq? Mən ki bunlara başqaları kimi siyahı verməmişdim axı, bunu alın, onu alın. Atamgildən paltarlarım gələnə qədər bir xalat almaq olardı...".

Gülər (balaca baldızım) əlində rəngi bilinməyən bir çit don gətirdi. Özünün idi. O qədər cılız idim ki, ancaq Gülərin paltarı mənə olardı:

-Nənəm dedi, sənə verim.

-Sağ ol.

Gülər çıxan kimi tez gəlinlik donumu çıxarıb onun gətirdiyi paltarı geyindim. Ürəyim ağzıma gəldi, bilmirəm haradan çıxarıb gətirmişdi bunu. His və kir iyisi gəldi. Elə bil, bu ailədə mənim əynimə gələn bircə dənə təmiz paltar yox imiş". Bəli, bundan betər dərəcədə bir ifşanı təəvvür etmək mümkün deyil. Hətta 80-ci illəri Azərbaycanda mədəni inkişafın az qala yüksək səviyyədə olduğunu hər birimiz etiraf edirdik. Amma təəvvür edin ki, kənin illərdə hansı dəyərlərin, o dəyərlərin ki, eybəcərliyi heyrət doğurur - hakim olduğu ailələr də var imiş. Ulduz Qasım demək olar ki, müvafiq mənzərəni yaratmaq üçün əlavə heç bir boyadan istifadə etmir. Hər kəsi öz sözü, öz mövqeyi ilə üzə çıxarır. Özü də bütün kəskinliyi ilə.

Bütün bunlar azmış kimi, aile üzvlərinin demək olar ki, hər birində gəlinə qarşı heç bir ehtiramı münasibət hiss olunmur. Elə bil ki, qabaqcadan silahlanıblar ki, aileyə gələn gəlinin gözünü elə həmin gün qorxutsunlar. İradəsini sındırsınlar. İnamını öldürsünlər.

Vəziyyət dəyişdikcə Zöhrə bu adamların insani dəyərlərdən nə qədər uzaq olduğunu addım-addım hiss edir. O yaxşı başa düşür ki, geriyə yol yoxdur. Hələ bir qədər gələcəyə ümidli ona görə yanaşır ki, o, Vüqarla buralardan uzaqlara gedəcək, belkə orada Vüqarla ünsiyyəti normal vəziyyətə düşər. Belkə ilk baxışdan Vüqar ona kor-kobud, anlaqsız görünməsinə baxmayaraq daha üstün keyfiyyətləri ilə özünü göstərər. Təəssüf ki, belə olmur. Zöhrə həyatının axarını addım-addım xatirələri ilə təəvir edir. Sadəcə susmağı ilə vəziyyəti normal həddə saxlamağa çalışır. Yol boyu Vüqarın qanmaz münasibəti, hətta intim münasibətdə belə heyvani hərəkətləri Zöhrədə ikrah doğursa da, kəskin etiraz etmir. Özünün mədəni hərəkətləri ilə Vüqarı mənəvi normaları aşmamağa yönəldir. Tezliklə yol başa çatır, o, Leninqrادa Vüqarın hansı mühitdə olduğuna da şahid olur.

Vüqarın dostuqilə düşürlər. Yaxşı deyirlər ki, hər kəs öz mühitinin övladıdır. Məlum olur ki, Vüqarın heç bir evşiyi yoxdur. O, yataqxanada qalır və tikintidə fəhlə işləyir. İlk dəfə Zöhrə Vüqarın dilindən doğru söz eşidir; onun fəhlə işlədiyini öz dilindən.

Hələ maskanın yırtılma seriyalının Bakı səhnəsi də kifayət qədər maraqlıdır. Zöhrə burada Vüqarın bacısının hərəkətlərini təəccüb və təəssüflə qarşılayır. Elə onun gözlərinin qabağında Vüqarın bacısı Sənıyyənin öz ərinə *"Sən kişi deyilsən"* dediyi sözün nəticəsi kimi üzündə şillə açılır. Bəli, ən onu həmin sözə görə şillə ilə qazaldandır. Bir sözlə, Sənıyyə həyatının ağrı-acılarına doğru belə çıpaq həqiqətlərlə qarşılaşaraq yeriyir.

Çətinliklə Leninqrادa ev kirayələyirlər. Burada Vüqarın insanlığa yaraşmayan kobudluğu, ev sahibinin ac uşaqlarına qəddar münasibəti də bir acılıq yaradır.

Zöhrə öz düşüncələrinə romantik bir qız kimi görünür. Leninqrادa düşərkən yağışın yağmasını özünəxas şəkildə mənalandırır: *"Leninqrادa yağış yağırdı. Məni göz yaşları ilə qarşılayırdı ömrümü keçirəcəyim şəhər. Həmişə qərib olaraq elimin, obamın həsrəti ilə yaşayacağım bu torpaq. Yaqondan çıxan kimi əsməyə başladım".* Düşünmək olar ki, bu ifadələrin hər birinin arxasında müəyyən məna, məzmun var. Bu artıq Zöhrənin yeni həyatının hansı acılıqlarla başladığına kifayət qədər aydınlıq gətirən cizgilərdir.

Leninqrادa yaşamaq üçün Vüqarın nəinki evinin olmaması, hətta ehtiyat üçün heç bir qara qəpik pulunun da olmadığı məlum olur. Zənnimizcə, Leninqrادa başlayan yeni həyat artıq Zöhrənin həyatının növbəti mərhələsidir. Ancaq əvvəlki mərhələlərdən fərqli olaraq, Zöhrə artıq onu nələrin gözləndiyini qismən də olsa, təəvvür edə bilir.

Əsər kifayət qədər cazibə gücünə malikdir. Ulduz Qasım sözü gücə salmır. Hadisələri kənardan müdaxilə də mənalandırmağa çalışmır. Elə bunun özü də oxucu marağını təmin edir. Demək, oxucunu əsərin cazibəsində saxlayan əsas cəhət həyat həqiqətlərinin kifayət qədər səriştə ilə təsviridir.

04.07.2022.